## Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydalarının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 dekabr tarixli, 47 nömrəli Fərmanının 2-ci bəndinin 2-ci abzasının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təqdim edilmiş və aidiyyəti təşkilatlarla razılaşdırılmış "Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur). [1]
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 19 iyun 2000-ci il
103

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 19 iyun tarixli, 103 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi

## QAYDALARI

### ÜMUMİ MÜDDƏALAR

Azərbaycan Respublikasında mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən vətəndaşların sağlamlığına ziyan dəyməsi hallarının mövcudluğu və aradan qaldırılması onlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydalarının tətbiq edilməsi ilə tənzimlənir.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Azərbaycan Respublikasının Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında, «Bədən Tərbiyəsi və İdman haqqında» qanunlarına və digər normativ hüquqi aktlarına əsasən həyata keçirilir. [2]

Bu Qaydalar Azərbaycan Respublikasında mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən vətəndaşların sağlamlığına zərər dəyməsi səbəblərinin aradan qaldırılması, zərər çəkmiş idmançılara tibbi, sosial və peşə reabilitasiyası, ictimai həyatın bütün sahələrində bərabər imkanların yaradılmasına, onların öz fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq surətdə dolğun həyat yaşamaları üçün lazımi şərait yaradır.

### TİBBİ, SOSİAL VƏ PEŞƏ REABİLİTASİYASI İLƏ BAĞLI TƏLƏBATIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş, əlil hesab edilən və ya sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsinə tələbatın olması idmançının peşə və məişət fəaliyyətinə yararlılıq səviyyəsi nəzərə alınmaqla Tibbi-Sosial Ekspert Komissiyasının rəyinə əsasən müəyyən edilir. Əlilin və ya sağlamlıq imkanları məhdud uşağın reabilitasiyası ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan tibbi, sosial və peşə bərpa tədbirləri Fərdi Bərpa Proqramında (FBP) təsbit olunur. [3]

Vətəndaşa Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən müəyyən olunmuş FBP təqdim olunduqdan sonra ona tibbi, sosial və peşə reabilitasiyası xidmətləri göstərilir.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş, lakin əlil və ya sağlamlıq imkanları məhdud uşaq olmamış vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası mənsub olduğu idman yönümlü təşkilat tərəfindən hazırlanmış xüsusi bərpa proqramı əsasında həyata keçirilir.

### TİBBİ REABİLİTASİYA

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət tibb müəssisələrinin vəsaiti hesabına ilkin diaqnostik və tibbi yardım xidmətləri pulsuz həyata keçirilir.

### SOSİAL REABİLİTASİYA

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi və sosial təminat ödənişlərinin (pensiyalar, müavinətlər, birdəfəlik ödənclər), dərman preparatlarının, texniki və başqa vasitələrin verilməsi onlara sosial reabilitasiya sahəsində xidmətlər göstərilməsi yolu ilə həyata keçirilir.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara göstərilməsi vacib olan tibbi və sosial yardım növləri Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən Fərdi Bərpa Proqramına uyğun olaraq müəyyən edilir.

### PEŞƏ REABİLİTASİYASI

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən, sağlamlığına ziyan dəymiş idmançıya ziyanın ödənilməsi və peşə reabilitasiyası şərtləri idmançı ilə onun üzv olduğu təşkilat arasında bağlanmış müqaviləyə əsasən müəyyənləşdirilir.

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S.2578.